# "Ədəbi-bədii düşüncələr"

**Tanınmış ədəbiyyatşünas, sənətşünas, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Timuçin Əfəndiyevin bu günlərdə "Zərdabi Nəşr" nəşriyyatında işıq üzü görmüş "Ədəbi-bədii düşüncələr" kitabı müəllifin çoxillik tədqiqatçılıq fəaliyyətinin uğurlu nəticəsidir.**



Kitab üç əsas bölmədən ibarətdir. Birinci bölmədə müəllifin müxtəlif illərdə qələmə aldığı nəzəri-estetik məqalələri yer almışdır. İkinci bölmədə müəllifin ədəbi tənqidə, teatrşünaslığa, kinoşünaslığa, rəssamlığa, musiqi sənətinə, kulturologiyaya, rejissorluğa, bütövlükdə, sənət və sənətkarlıq məsələlərinə həsr olunmuş məqaləri, görkəmli elm və mədəniyyət xadimləri ilə bağlı xatirələri və səfər təəssüratları toplanmışdır. Üçüncü bölmədə Timuçin Əfəndiyev haqqında mətbuatda dərc olunmuş məqalələr və tanınmış şəxsiyyətlərin onun haqqında fikirləri yer almışdır.

Müəllif yaradıcı fəaliyyəti dövründə hər zaman mətbuatla təmasda olmuş, qəzet və jurnallarla yaxından əməkdaşlıq etmiş, elmi-nəzəri və publisistik məqalələr yazaraq çap etdirmişdir. Yüksək elmi-nəzəri hazırlıq, intellektuallıq və təfəkkür orijinallığı professor Timuçin Əfəndiyevin təhlil üsulu üçün çox səciyyəvidir. Nəzəri ümumiləşdirmə aparmaq bacarığı bu məqalələrə xüsusi elmi siqlət verir.

Qeyd etdiyimiz kimi, kitabda alimin səfər təəssüratlarına da geniş yer verilib. O, bir sıra xarici ölkələrdə, o cümlədən, Türkiyə, Rusiya, Fransa, Amerika Birləşmiş Ştatları, Britaniya, Misir və s. ölkələrdə nüfuzlu elmi-nəzəri konfransların və simpoziumların iştirakçısı olmuş, Azərbaycan mədəniyyəti və incəsənəti mövzusunda məruzələr etmişdir. Alim 2005-ci ilin mart ayında Dövlət Departamentinin dəvəti ilə ABŞ universitetlərində tədris prosesi ilə tanışlıq məqsədilə həmin ölkədə səfərdə olmuşdur. Sonralar o, səfər təəssüratlarını "ABŞ-da olduğum günlər", "Səfərdə məqsəd təcrübə mübadiləsini genişləndirmək idi" adlı məqalələr yazaraq müxtəlif mətbuat orqanlarında dərc etdirmişdir.

Kitabın üçüncü bölməsi görkəmli elm, ədəbiyyat, mədəniyyət xadimlərinin, tanınmış ziyalıların və sənətkarların Timuçin Əfəndiyev haqqında mətbuatda dərc edilmiş məqalələrinə həsr olunub. Akademiklər Azad Mirzəcanzadə, Kamal Talıbzadə, Tofiq Köçərli, Fuad Qasımzadə, Teymur Bünyadov, Rasim Əfəndiyev, Vasim Məmmədəliyev, Əhliman Əmiraslanov, Kamal Abdulla, AMEA-nın müxbir üzvü, professor İnqilab Kərimov, Əməkdar elm xadimi, professor Ağabəy Sultanov, xalq yazıçıları Anar, Hüseyn Abbaszadə, xalq şairi Qabil, xalq artistləri Oqtay Mirqasımov, Eldar Quliyev, Fərhad Bədəlbəyli, Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov, xalq rəssamları Ömər Eldarov, Səlhab Məmmədov və digərlərinin Timuçin Əfəndiyev haqqındakı ürək sözləri, onun cəmiyyətimizin mədəni həyatındakı xidmətləri, bütöv şəxsiyyəti, Vətən sevgisi, alicənablığı, xeyirxahlığı, vətəndaş-alim və yüksək mədəniyyətli ziyalı rəhbər kimi ali keyfiyyətləri sərgilənir.

Akademik Kamal Talıbzadə yazır: "Timuçin Əfəndiyev qədirbilən adamdır. Bu xüsusiyyət ona atasından keçib. O, təkcə atasının dostlarını yox, ümumən, milli ziyalıları yüksək qiymətləndirən alim və təşkilatçıdır. Timuçin müəllim hərtərəfli yaradıcılığa malikdir. O təkcə filoloq alim yox, həm də teatrşünaslıq və sənətşünaslıq mütəxəssisidir. Onun teatra və incəsənətə dair kitabları belə qənaətə gəlməyə tamamilə imkan verir."

Professor Timuçin Əfəndiyevin yüksək peşəkarlıqla yazdığı "Ədəbi-bədii düşüncələr" kitabı onun elmi potensialının və uzun illərdən bəri apardığı fədakar əməyinin, səmərəli tədqiqatlarının uğurlu bəhrəsidir.

*Vəfa XANOĞLAN,*
*sənətşünaslıq elmləri doktoru*

Xalq qəzeti .- 2022.- 13 dekabr.- S.9.